# YUBİLEY IŞIĞINDA ELMİ SESSİYA



Aprelin 23-də Bakı Dövlət Universitetində - 3 saylı Tədris Korpusunun Dəyirmi zalında görkəmli folklorşünas alim, AMEA-nın müxbir üzvü olmuş professor Azad Mövlud oğlu Nəbiyevin anadan olmasının 80 illik yubileyi münasibətilə elmi sessiya keçirildi. BDU-nun müəllim və tələbələrinin, habelə alimin ailə üzvlərinin və doğmalarının iştirak etdiyi yubiley tədbirini giriş sözü ilə BDU-nun Azərbaycan Şifahi Xalq Ədəbiyyatı kafedrasının müdiri professor Səhər Hidayət qızı Orucova açdı. Tədbir iştirakçılarını salamlayıb, Azad müəllimin həyat yolu və elmi fəaliyyətindən danışdı.



Tədbirin aparıcısı olan filologiya üzrə fəlsəfə doktoru, BDU-nun Azərbaycan Şifahi Xalq Ədəbiyyatı kafedrasının müəllimi Məhəmməd Məmmədov Azad müəllimlə uzun müddət bir kafedrada çalışmasından söhbət açıb, sözü AMEA-nın həqiqi üzvü Teymur Kərimliyə verdi.

Teymur müəllim çıxışında Azad müəllimi hələ tələbəlik dövründən tanıdığını qeyd edib, onun bir insan və alim kimi xatirələrdə dərin iz qoymasından danışdı, əsərləri ilə bağlı fikirlərini bölüşdü.

AMEA Folklor İnstitutunun direktoru, dosent Hikmət Quliyev Azərbaycan folklorşünaslarından ilk olaraq AMEA-nın müxbir üzvü seçilmiş professor Azad Nəbiyevin elmi xidmətlərindən, ayrı-ayrı əsərlərinə toxunmaqla onun Azərbaycan folklorşünaslığı tarixindəki misilsiz xidmətlərindən geniş şəkildə bəhs etdi.

AMEA Folklor İnstitutunun əməkdaşlarından filologiya elmləri doktoru, professor Ramil Əliyev "Azad Nəbiyev və folklor mədəni irsi", filologiya elmləri doktoru, dosent Qalib Sayılov "Milli folklorşünaslığımızda Azad Nəbiyev assosiasiyası", BDU-nun müəllimləri - Azərbaycan Şifahi Xalq Ədəbiyyatı kafedrasının əməkdaşları olan filologiya üzrə fəlsəfə doktorları, dosentlər Etibar Talıblı "Azərbaycan folklorunun görkəmli tədqiqatçısı və təbliğatçısı", Kəmalə İslamzadə "Etnopsixoloji düşüncə ilə bağlı yaranan janrlar Azad Nəbiyev tədqiqatında" mövzularında məruzələr edib, görkəmli folklorşünas alim Azad Nəbiyevin elmi-pedaqoji fəaliyyətindən söz açdılar.

BDU-nun müəllimləri professor Cəlil Nağıyev, dosent Məhərrəm Vəliyev, Folklor İnstitutunun Mifologiya şöbəsinin müdiri, professor Seyfəddin Rzasoy və başqaları çıxışlarında folklorşünas alim A.M.Nəbiyevlə bağlı xatirələrini bölüşüb, folklorşünaslıq fəaliyyətindən, özündən sonra ölməz elmi irs qoyub getməsindən söhbət açdılar.

Axırda Azad müəllimin qızı, BDU-nun müəllimi filologiya elmləri doktoru, folklorşünas Ülkər Nəbiyeva çıxış edib, atasının xatirəsi işığına toplaşanlara, habelə belə geniş şəkildə yubiley tədbirinin keçirilməsində mühüm xidmətləri olan akademik İsa Həbibbəyliyə və Universitetin rektoruna səmimi təşəkkürlərini ünvanladı.

P.S.: Professor Azad Nəbiyev əsl Azərbaycan kişisi kimi zabitəli və şəxsiyyət bütövlüyünə malik olan prinsipial əqidə sahibi idi. Mərd və alicənab bir insan kimi onun əziz xatirəsi həmişə bizimlə yaşayacaq, folklorşünas alim kimi özündən sonra qoyub getdiyi zəngin elmi irsi isə zaman-zaman öyrəniləcək, bu günkü və gələcək tədqiqatçılara istiqamətverici yol göstərəcəkdir.

Ruhunuz şad, məkanınız cənnət olsun, əzizimiz Azad müəllim!.



*Şakir ALBALIYEV*